Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Millətlərarası münasibətlərin Azərbaycan modeli dünyaya örnək kimi qalmaqdadır...

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

**Tarixi təcrübə göstərir ki, millətlərarası münasibətlərin formalaşması ictimai həyatda aktual və mürəkkəb problemdir. O da qeyd edilməlidi rki, millətlərarası harmoniyanın məzmunu maddi, mənəvi sərvətlərin istehsal yolu və siyasi münasibətlərin növü ilə müəyyən edilir.**



Heç də hər bir ölkədə bu xüsusda münasibətlər rəvan getmir. Amma Azərbaycanda fərqli mənzərə hökm sürür və ölkəmiz bu məsələdə unikal nümunələrdən biri hesab edilir.

### Azərbaycan dinc yanaşı yaşamanın zəngin və təkrarolunmaz təcrübəsinə malikdir

Müasir dünyada Azərbaycan dayanıqlı siyasi sistemə, sosial sabitliyə, millətlərarası və konfessiyalararası münasibətlərin harmonik vəziyyətinə, yüksək beynəlxalq nüfuza malik və davamlı iqtisadi yüksəliş nümayiş etdirən ən uğurlu dövlətlərdən biri hesab olunur. Bu gün dünyada 240-a qədər çoxmillətli dövlətdə birləşən 4000-ə yaxın xalq, millət və tayfa yaşayır. Azərbaycanda da çoxsaylı milli və etnik qruplar, xeyli sayda konfessiya var. Onlar arasında Azərbaycan dövləti harmonik münasibətlər yarada bilib.

Bu gün də millətlərarası harmoniyanın möhkəmlənməsi dövlət siyasətinin aparıcı prioriteti və Azərbaycan cəmiyyətinin fundamental dəyəri kimi çıxış edir. Ölkəmizdə millətlərarası münasibətlər insanların hərəkətlərində, onların dünyagörüşündə, əxlaqi prinsiplərində, davranış normalarında, yəni, sosial-psixoloji, siyasi və hüquqi mexanizmlər vasitəsilə həyata keçirilən ünsiyyətin, razılığın subyektivləşdirilmiş formalarında özünü ən yüksək səviyyədə göstərir. Azərbaycanın tarixi torpaqlarında xalqların, sivilizasiyaların, mədəniyyətlərin və müxtəlif dinlərin bir dövlətdə dinc yanaşı yaşamasının zəngin və təkrarolunmaz təcrübəsi toplanıb. Bu irs cəmiyyətdəki birliyin köklərini müəyyənləşdirir və gələcəyi daha aydın görməyə kömək edir. Cəmiyyətin demokratikləşməsi Azərbaycanda bütün etnik qrupların mədəniyyətinin və dillərinin dirçəlişi və inkişafı üçün şərait yaradır. Bu inkişaf Azərbaycandakı bütün etnik qrupların vətəndaş birliyi əsasında baş verir ki, bu da millətlərarası münasibətlərin inkişafına əlavə töhfə verir. Bütün bunlar tarixi inkişafın nəticəsidir. Millətlərarası harmoniya ilk növbədə əsas sosial institutlarda formalaşır. Onlar inkişaf etdikcə millətlərarası münasibətlər yeni səviyyəyə qalxır ki, bu da müasir vətəndaş cəmiyyətinin tarixi və siyasi əsası kimi çıxış edir. Burada bir məsələyə də toxunmaq lazım gəlir. Son zamanlar dünyada millətlərarası münasibətlərin vəziyyətinə təsir edən yeni xarici amillər meydana çıxıb, məsələn, etnik və konfessional zəmində geosiyasi parçalanma ehtimalı, eləcə də regionda hərbi-siyasi sabitliyin pozulması təhlükəsinin yaranması, humanitar fəlakətlərin mümkünlüyü və nəzarətsiz qaçqın axınının yaranması bunun təzahürləridir. Həmçinin dini ideyalar adı altında ekstremist, terrorçu və radikal qrupların qanunsuz fəaliyyəti, xarici kütləvi informasiya vasitələrində zərərəli təbliğat, ölkə qanunlarına tabe olmayan dini birliklər vasitəsilə milli mentaliteti yad kütləvi mədəniyyətin və əxlaqın təsiri, transmilli cinayətlərin artması, konfessiyaların və etnoyönümlü təşkilatların siyasiləşdirilməsi də misal kimi göstərilə bilər. Bu amillər millətlərarası münasibətlərdə sabitliyi poza bilər. Amma Azərbaycanda bu təhdidlər keçərli sayılmır. Xalqımızın tolerant mentaliteti, yeniliklərə münasibətdə cəsarət, uğurla həyata keçirilən əsas islahatlar, millətlərarası harmoniya və dostluq, siyasi sabitlik, ölkənin davamlı və dinamik iqtisadi artımı burada öz rolunu oynayır. Bütün bu amillər Azərbaycan vətənpərvərliyinin formalaşmasında ən mühüm amil kimi millətlərarası harmoniyanın əsasına çevrilib.

### Qarabağ ermənilərı üçün inteqrasiya mərhələsi

Bu gün Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı, insan hüquqlarının qorunması və təmin edilməsi millətlərarası harmoniyanın möhkəmlənməsinə böyük töhfə verir. Eyni zamanda, dinlərarası və millətlərarası harmoniya hərtərəfli təhlükəsizliyin, sabitliyin, mütərəqqi iqtisadi və siyasi inkişafın təməl daşıdır.

Millətlərarası harmoniya siyasəti azərbaycanlıların fəaliyyətinin bütün aspektlərini əhatə edir, onun ümumi siyasətinin strukturunda ən mühüm komponentlərdən biridir. O da qeyd edilməlidir ki, bu məsələdə azərbaycançılığın milli birliyimizin təminatında yeri və rolu əvəzsizdir. Çünki azərbaycançılıq milli birliyimizin təməl prinsipi olaraq milli azlıqlar arasında da geniş yayılmış və qəbul olunmuş ideologiyadır. Bundan əlavə, Azərbaycanda təkcə islamdaxili harmoniya deyil, eyni zamanda, digər daxili və dünyadakı konfessiyalar arasında həmahənglik mövcuddur. Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin bir yerdə dostluq, qardaşlıq şəraitində yaşamaları, ölkəmizdə mövcud olan dini harmoniya bütün dünyaya nümunədir. İndi Qarabağda qalan ermənilərin də bütün bunları nəzərə alıb, mümknü qədər tez Azərbaycan cəmiyyətinə inteqrasiyaya start vermələri onların öz gələcəkləri üçün olduqca mühümdür. Bu halda Qarabağda yaşayan ermənilərlə də Azərbaycan vətəndaşları kimi davranılacaq. İndiki şərait və bütün şərtlər Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiya dövrünün gəlib çatdığını göstərir. Bu xüsusda Azərbaycanın mövqeyini yerli televiziya kanallarına müsahibəsində prezident İlham Əliyev bir daha ifadə edib: "Mən demişəm, bir daha demək istəyirəm ki, orada Azərbaycan bayrağı altında yaşamaq istəyənlər üçün şərait yaradılacaq. Azərbaycan vətəndaşları kimi, onların hüquqları da, onların təhlükəsizliyi də təmin olunacaq. Bu günlərdə baş verən hadisə, - o bir nəfərin oraya qaytarılması, özü də əli dolu qaytarılması, ona iki blok siqaret də verdilər, çünki siqaret xahiş etməyə gəlmişdi, - onu göstərir ki, biz onların nəinki hüquqlarını və təhlükəsizliyini təmin edəcəyik, onlar daha yaxşı yaşayacaqlar. Əlbəttə, bu, bizim əlimizdə nədir ki? Heç nə. Əgər vaxtilə bizə qarşı separatçı hərəkat başlamasaydı, bu gün onlar da Azərbaycanın bütün başqa yerlərində olduğu kimi yaşaya bilərdilər. İndi onların yaşadıqları mənzərə göz önündədir. İndi gedib görənlər var hansı şəraitdə yaşayırlar. Ona görə, kim bizim vətəndaş olmaq istəmirsə, yol bağlı deyil, açıqdır. Gedə bilərlər, ya özləri gedə bilərlər, heç kim onlara maneəçilik yaratmayacaq, ya da sülhməramlıların yük maşınlarının tenti altında gedə bilərlər, avtobusla da gedə bilərlər. Yol açıqdır".

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**